AzerGold

# KORPORATİV SOSİAL MƏSULİYYƏT KOMİTƏSİNİN

İLLİK

# HESABATI

Bakı-2023



AzerGold

# KORPORATİV SOSİAL MƏSULİYYƏT KOMİTƏSİNİN

## İ L L İ K   H E S A B A T I

Bakı-2023

# MÜNDƏRİCAT


GİRİŞ ........ 6

Vətəndaşlarla görüşlər ........ 8-9

Sosial layihələr ........ 10-23

Ekoloji layihələr ........ 24-27

İanə və maddi yardımlar ........ 28-33

# GİRİŞ

“AzerGold” Qapalı Səhmdar Cəmiyyəti (QSC) Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2015-ci il tarixli 1047 nömrəli Sərəncamına əsasən təsis edilib, 5 iyul 2016-cı ildə dövlət qeydiyyatına alınıb.

“AzerGold” QSC əlvan və qara metal filizi yataqlarının öyrənilməsini, tədqiqini, kəşfiyyatını, işlənməsini və idarə olunmasını, bu sahədə yeni texnologiyaların tətbiqini, maddi-texniki bazanın müasirləşdirilməsini və ondan səmərəli istifadəni, habelə bu sahənin inkişafı ilə bağlı digər işləri yerinə yetirir.

Təbii resurslardan səmərəli istifadə, dayanıqlı inkişaf konsepsiyasının tətbiqi və sosial məsuliyyətlilik “AzerGold” QSC-nin idarəçiliyinin təməl prinsiplərini təşkil edir. Cəmiyyət fəaliyyətinin ətraf mühit, hasilat ərazilərində yaşayan yerli əhali və icmalara, habelə onların ayrılmaz hüquqlarına göstərə biləcəyi mümkün təsiri haqqında məlumatlıdır və bu təsirin ədalətli şəkildə tənzimlənməsi Cəmiyyətin Sosial Təsir və Məsuliyyət üzrə Siyasəti çərçivəsində həyata keçirilir.

“AzerGold” QSC-nin Sosial Təsir və Məsuliyyət üzrə Siyasəti milli qanunvericilik, dağmədən sahəsində mütərəqqi beynəlxalq təcrübə, həmçinin BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri nəzərə alınmaqla formalaşdırılır və davamlı olaraq təkmilləşdirilir.

“AzerGold” QSC-nin Sosial Təsir və Məsuliyyət üzrə Siyasəti 2017-ci ilin oktyabrında fəaliyyətə başlamış Korporativ Sosial Məsuliyyət (KSM) Komitəsi tərəfindən formalaşdırılır və icra edilir. Komitə kollegial orqandır və dövri olaraq fəaliyyəti barədə hesabatlar dərc edir.




Milli KSM Mükafatı-2022




“Autizm dostu” diplomu




2023-cü ilin ən yaxşı tərəfdaşı

“AzerGold” QSC 2022 və 2023-cü illərdə korporativ sosial məsuliyyət fəaliyyəti çərçivəsində icra etdiyi sosial və ekoloji layihələrə görə bir sıra mükafatlara layiq görülüb. Belə ki, QSC 2022-ci ildən ölkəmizdə autizm spektr pozuntulu uşaqların fərdi inkişafı istiqamətində səmərəli fəaliyyətinə görə “Milli KSM Mükafatı-2022” və “Autizm dostu” diplom ilə təltif edilib. Həmçinin Səhmdar Cəmiyyət Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən ölkəmizdə ətraf mühit layihələrinə göstərdiyi dəstəyə görə “2023-cü ilin ən yaxşı tərəfdaşı” seçilib.

# VƏTƏNDAŞLARLA GÖRÜŞLƏR

**2023-cü ildə** "AzerGold" QSC-nin KSM Komitəsi tərəfindən regionlarda yerli icmalarla ümumilikdə 4 görüş keçirilib. Vətəndaşlarla görüşlərin rayonlar üzrə bölgüsü aşağıdakı kimidir:

**Daşkəsən rayonu – 2 görüş**

Görüşlərdə Daşkəsən şəhəri və rayonun Çovdar, Quşçu kəndləri, eləcə də "Şadax" adlandırılan yaşayış məskəni, Zağalı, Xoşbulaq, Alunitdağ və Yuxarı Daşkəsən kəndlərinin sakinləri iştirak ediblər.

**Göygöl rayonu – 2 görüş**

**2023-cü ildə** Göygöl rayonunun sakinləri ilə 2 görüş keçirilib. İlk görüş Göygöl rayonunda, ikinci görüş isə Gəncə şəhərində keçirilib. Hər iki görüşdə Göygöl rayonunun Tülallar kəndinin sakinləri iştirak ediblər.

Görüşlərdə QSC-nin aktiv hasilat fəaliyyəti həyata keçirdiyi Daşkəsən və Göygöl rayonlarında ətraf mühitin mühafizəsi, təhsil, sağlamlıq və s. istiqamətlər üzrə icra edilən çoxsaylı layihələr, o cümlədən yeni istehsalat sahələrinin fəaliyyətə başlaması ilə məşğulluğunun artırılması və bölgənin sosial-iqtisadi inkişafına veriləcək töhfələr barədə ətraflı məlumat verilib. Bununla yanaşı, vətəndaşların müraciətlərinə baxılıb, aidiyyəti məsələlərlə bağlı mövcud qanunvericilik çərçivəsində müvafiq addımlar atılıb. Vətəndaşlar tərəfindən müxtəlif mövzular üzrə qaldırılan məsələlər və suallara izahedici cavablar verilib, maarifləndirici söhbətlər aparılıb.






Daşkəsən sakinləri ilə görüş






Göygöl sakinləri ilə görüş

## SOSİAL LAYİHƏLƏR

### Türkiyəyə humanitar yardım

**12.02.2023-cü il** tarixində "AzerGold" QSC Türkiyədə baş vermiş zəlzələdən zərər çəkənlərə dəstək məqsədilə qardaş ölkəyə humanitar yardım göndərib.
Faciədən zərər çəkmiş şəxslərin, eləcə də xilasedici heyətin zəruri ehtiyaclarının qarşılanması məqsədilə generator, elektrik qızdırıcısı, uşaqlar, qadınlar və kişilər üçün isti geyim dəstləri, yataq ləvazimatları və s. mal və avadanlıqlar Heydər Əliyev Fondunun xətti ilə fəlakət zonasına göndərilməsi üçün aidiyyəti üzrə təqdim edilib.

### "Daşkəsən rayonunda arıçılıq təsərrüfatının inkişafına dəstək" layihəsi

"AzerGold" QSC-nin təşkilatçılığı, KOBİA-nın dəstəyi ilə "Daşkəsən rayonunda arıçılıq təsərrüfatının inkişafına dəstək" layihəsi uğurla icra edilib.
**03.03-20.06.2023-cü il** tarixlərində icra edilən layihənin əsas məqsədi Daşkəsən rayonunda mikro və kiçik sahibkarlıq ekosisteminin inkişafı, arıçılıq təsərrüfatının ekosahibkarlıq növü kimi təşviqi və təbii bal istehsalının artırılmasıdır.
Artıq ikinci ildir ki, həyata keçirilən layihə çərçivəsində arıçılıq təsərrüfatlarında monitorinqlər aparılıb, fermerlər yüksək məhsuldar arı ailəsi yetişdirmək üçün kompleks tədbirlər barədə nəzəri və praktiki təlimlərə cəlb ediliblər.
Layihədə iştirak edən 32 nəfər fermerə sertifikatlar təqdim edilib. Fermerlərə tələb olunan ləvazimatlarla tam təchiz edilmiş 96 ədəd arı ailəsi, eləcə də arıçıların ümumi istifadəsi üçün 5 ədəd balsüzən dəzgah təqdim edilib. Tədarük edilmiş təbii balın realizə edilməsinə dəstək göstərilib.






Türkiyəyə humanitar yardım
**12.03.2023**





“Daşkəsən rayonunda arıçılıq təsərrüfatının inkişafına dəstək” layihəsi
**03.03.2023 - 20.06.2023**

# SOSİAL LAYİHƏLƏR

## Gəncədə Autizm Mərkəzinin istifadəyə verilməsi

Heydər Əliyev Fondunun təşəbbüsü, "AzerGold" QSC-nin dəstəyi, "Birgə və Sağlam" İctimai Birliyinin təşkilatçılığı ilə Gəncə şəhərində regional Autizm Mərkəzi istifadəyə verilib.
**11.04.2023-cü il** tarixində "Heydər Əliyev İli" çərçivəsində Gəncə Autizm Mərkəzinin rəsmi açılış mərasimi keçirilib. Autizm Mərkəzi Gəncə şəhəri və ətraf rayonlar, o cümlədən Göygöl, Daşkəsən, Goranboy, Şəmkir və Tovuz rayonlarından olan autizm spektr pozuntulu şəxslərin fərdi inkişafına və onların ailələrinin dəstəklənməsinə xidmət edir. Layihə çərçivəsində region üzrə 150 ailə yerli və beynəlxalq mütəxəssislər tərəfindən tibbi və psixo-pedaqoji qiymətləndirmədən keçirilib. Nəticədə risk qrupuna düşən, xüsusi təhsil dəstəyinə ehtiyacı olan 78 nəfər uşaq və yeniyetmə müəyyənləşdirilib. Azyaşlılar məktəbəqədər təhsil, ixtisasəldəetmə, özünüidarəetmə və müstəqil davranış bacarıqlarına yiyələnmə kimi ehtiyaclara uyğun tam ödənişsiz təlim və bərpa prosesinə cəlb olunublar.

## Akademik Zərifə Əliyevanın 100 illiyinə həsr olunmuş səyyar göz müayinəsi aksiyası

"AzerGold" QSC və Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin birgə təşkilatçılığı ilə Daşkəsən rayonunda ilk dəfə səyyar göz müayinəsi aksiyası təşkil edilib.
**24-26.04.2023-cü il** tarixlərində keçirilən aksiya əhatəli elmi fəaliyyəti ilə ölkəmizdə oftalmologiya sahəsinin inkişafına əhəmiyyətli töhfələr vermiş görkəmli alim Zərifə Əliyevanın anadan olmasının 100 illiyi çərçivəsində keçirilib. Aksiyanın ilk günü Vətən müharibəsi şəhidlərinin ailə üzvləri, həmçinin qazilər müayinəyə cəlb ediliblər. Aksiyada, ümumilikdə 300 nəfərə yaxın Daşkəsən sakini iştirak edib.





Gəncədə Autizm Mərkəzinin istifadəyə verilməsi
**11.04.2023**






Akademik Zərifə Əliyevanın 100 illiyinə həsr olunmuş səyyar göz müayinəsi aksiyası
**24.04.2023 - 26.04.2023**

# SOSİAL LAYİHƏLƏR

## Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə qanvermə aksiyası

“AzerGold” QSC-də Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə qanvermə aksiyası təşkil edilib. **10.05.2023-cü il** tarixində keçirilən aksiyada Cəmiyyətin, eləcə də onun törəmə şirkətləri olan “Daşkəsən Dəmir Filiz” MMC və “AzerBlast” MMC-nin əməkdaşları könüllü olaraq iştirak edərək, irsi və qazanılmış qan xəstəliklərindən əziyyət çəkən uşaqlara dəstək olmaq və onlar üçün tədarük olunan qan ehtiyatını artırmaq məqsədilə qan veriblər.

## Daşkəsəndə yaşayan uşaqlar üçün “Kitab sovqatı” aksiyası

**01.06.2023-cü il** tarixində 1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə “AzerGold” QSC tərəfindən Daşkəsən rayonunda növbəti “Kitab sovqatı” aksiyası keçirilib.
Uşaqlarda erkən yaşlardan mütaliə mədəniyyətinin formalaşdırılması və inkişaf etdirilməsi məqsədilə icra olunan layihə çərçivəsində “Çovdar” qızıl mədəni ətrafında yerləşən Çovdar, Quşçu, Bayan kəndləri, eləcə də “Şadax” adlandırılan yaşayış məskəninin azyaşlı sakinlərinə 3 yaş qrupu üzrə Azərbaycan dilində, nəfis tərtibatda çap edilmiş illüstrasiyalı kitablar hədiyyə edilib.
Qeyd edək ki, azyaşlılar tərəfindən böyük maraqla qarşılanan “Kitab sovqatı” aksiyası “AzerGold” QSC tərəfindən ilk dəfə 2020-ci ildə təşkil edilmişdi. Növbəti aksiya çərçivəsində xüsusi olaraq Daşkəsənin azyaşlı sakinləri üçün çap edilmiş müəllif kitabları rayon ərazisində fəaliyyət göstərən bir neçə baxça və ümumtəhsil müəssisəsinə də təqdim edilib.







Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə qanvermə aksiyası
**10.05.2023**





Daşkəsəndə yaşayan uşaqlar üçün “Kitab sovqatı” aksiyası
**01.06.2023**

# SOSİAL LAYİHƏLƏR

## ÇİRES-də çalışan Daşkəsən sakinləri və ətraf kəndlərdə yaşayan vətəndaşlarla görüş

**10.07.2023-cü il** tarixində “AzerGold” QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov Çovdar İnteqrəolunmuş Regional Emal Sahəsində (ÇİRES) çalışan Daşkəsən sakinləri və ətraf kəndlərdə yaşayan vətəndaşlarla görüşüb. ÇİRES-də keçirilən görüş əməkdaşların iş şəraiti, onları qayğılandıran məsələlərin müzakirəsi, həmçinin Cəmiyyətin korporativ sosial məsuliyyət fəaliyyəti çərçivəsində sosial ehtiyacların müəyyənləşdirilməsi və gələcəkdə icrası nəzərdə tutulan təşəbbüslərlə bağlı fikir mübadiləsinin aparılması məqsədi daşıyıb.

## Daşkəsəndə səyyar tibbi müayinə aksiyası

“AzerGold” QSC-nin təşkilatçılığı, Bakı Sağlamlıq Mərkəzinin dəstəyi ilə Daşkəsən rayonunda növbəti səyyar tibbi müayinə aksiyası keçirilib. **20-22.07.2023-cü il** tarixlərində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100-cu ildönümü münasibətilə “Öncə sağlamlıq!” devizi altında təşkil olunan aksiyada “Çovdar” qızıl mədənin yaxınlığında yerləşən Çovdar, Quşçu, Çaykənd, Bayan kəndləri, “Şadax” adlandırılan yaşayış məskəni, eləcə də digər kənd və qəsəbələrin sakinləri 3 gün müddətinə ödənişsiz olaraq müxtəlif tibbi xidmətlərdən yararlanıblar. Aksiya çərçivəsində peşəkar həkim briqadası tərəfindən 340 nəfər sakin ümumi cərrah, LOR, terapevt, endokrinoloq, kardioloq, nevropatoloq, pediatr, USM, EXO, EKQ, qanın və sidiyin ümumi analizi, ambulator qan təzyiqi monitorizasiyası və şəkərin təyini müayinələrindən keçirilib.
Qeyd olunan istiqamətlər üzrə sakinlərə ümumilikdə 1436 xidmət göstərilib.






ÇİRES-də çalışan Daşkəsən sakinləri və ətraf kəndlərdə yaşayan vətəndaşlarla görüş
**10.07.2023**







Daşkəsəndə səyyar tibbi müayinə aksiyası
**20.07.2023 - 22.07.2023**

# SOSİAL LAYİHƏLƏR

## "Daşkəsən və Göygöl rayonlarında aqrar inkişafa dəstək" layihəsi

"AzerGold" QSC-nin təşəbbüsü, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin dəstəyi ilə Daşkəsən və Göygöl rayonlarında aqrar inkişafa dəstək layihəsinin icrasına başlanılıb.
**24-27.07.2023-cü il** tarixlərində layihə çərçivəsində "AzerGold" QSC-nin əməkdaşlarının iştirakı ilə Aqrar Xidmətlər Agentliyinin mütəxəssisləri tərəfindən Daşkəsən rayonunun Çovdar, Çaykənd, Quşçu, Bayan kəndləri, "Şadax" adlandırılan yaşayış məskəni, eləcə də Göygöl rayonunun Tülallar kəndində kənd təsərrüfatı ilə bağlı monitorinq həyata keçirilib.
Adıçəkilən ərazilərdə aqrar sahədə mövcud vəziyyətin yoxlanılması, cəmiyyətin aktiv hasilat və istehsalat fəaliyyətinin ətraf ərazilərə təsirinin qiymətləndirilməsi məqsədilə heyvan, bitki, torpaq və su mənbələrindən götürülmüş nümunələr əsasında aparılmış laborator analizlərin nəticələrinə görə məhsuldarlığa, eləcə də sağlamlığa mənfi təsir edən faktorların olmadığı müəyyən edilib. Həmçinin fermerlər arasında aparılmış sorğu zamanı onların maddi-texniki ehtiyacları, təsərrüfat fəaliyyətlərində qarşılaşdığı əsas problemlər təhlil edilərək, ümumiləşdirilib.
Növbəti mərhələdə qlobal antropogen amillərin aqrar sahədə məhsuldarlığa mümkün təsirləri nəzərə alınaraq, fermer təsərrüfatlarının daha da inkişaf etdirilməsi məqsədilə müvafiq sahələri əhatə edən tədbirlər planının hazırlanması və beləliklə, praktiki addımların atılması, zəruri dəstək tədbirlərinin həyata keçirilməsi nəzərdə tutulub.





“Daşkəsən və Göygöl rayonlarında aqrar inkişafa dəstək” layihəsi
**24.07.2023 - 27.07.2023**

## SOSİAL LAYİHƏLƏR

### "Daşkəsən rayonunda qadınların məşğulluğunun artırılması" layihəsi

"AzerGold" QSC və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Məşğulluq Agentliyi "Daşkəsən rayonunda qadınların məşğulluğunun artırılması" layihəsini icra edib.
**02.08.2023-cü il** tarixində icrasına başlanılan layihə QSC-nin "Çovdar" qızıl mədəninin yaxınlığında yerləşən Çovdar, Quşçu kəndləri və "Şadax" adlandırılan yaşayış məntəqəsinin qadın sakinlərinin əmək bazarında rəqabət qabiliyyətinin artırılması, onların yeni peşələrə yiyələnməsi, aztəminatlı evdar qadınların məşğulluq məsələləri, qadınlar arasında mikro və kiçik sahibkarlığın inkişaf etdirilməsi məqsədi daşıyıb. Bu məqsədlə "AzerGold" QSC və Dövlət Məşğulluq Agentliyinin mütəxəssisləri tərəfindən keçirilən təlimlərdə qadınlara əmək bazarındakı aktual peşəixtisas sahələri, məşğulluq mərkəzlərində qeydiyyata durmaq qaydası, mövcud olan vakansiyalar, peşə təhsili müəssisələrinə qəbul qaydaları, özünüməşğulluq proqramı barədə ətraflı məlumat verilib. Həmçinin təlim iştirakçılarının düzgün iş seçimində karyera planlaması, potensialın kəşf edilməsi, bazar imkanlarının araşdırılması, məqsədlərin təyini və fəaliyyət planının qurulması, eləcə də Dövlət Məşğulluq Agentliyinin "Alo karyera" dəstək xidməti, iş axtarışı alətləri və müsahibəyə hazırlıq mövzularında maarifləndirilməsi təmin edilib. Layihənin növbəti mərhələsində Daşkəs ən rayonunda yaşayan qadınların peşə fəaliyyəti və özünüməşğulluq proqramlarına cəlb edilməsi üçün zəruri addımlar atılıb.

### İrsi və qazanılmış qan xəstəliklərindən əziyyət çəkən uşaqlara dəstək

**08.09.2023-cü il** tarixində "AzerGold" QSC-də irsi və qazanılmış qan xəstəliklərindən əziyyət çəkən uşaqlara dəstək olmaq və onlar üçün tədarük olunan qan ehtiyatını artırmaq məqsədilə növbəti qanvermə aksiyası təşkil edilib.
Aksiyada QSC və onun törəmə şirkətləri - "Daşkəsən Dəmir Filiz" MMC, "AzerBlast" MMC-nin əməkdaşları könüllü olaraq iştirak ediblər.






“Daşkəsən rayonunda qadınların məşğulluğunun artırılması” layihəsi
**02.08.2023**







İrsi və qazanılmış qan xəstəliklərindən əziyyət çəkən uşaqlara dəstək
**08.09.2023**

# SOSİAL LAYİHƏLƏR

## “Gələcəyin mədənçisi” layihəsi

**25.09.2023-cü il** tarixində “AzerGold” QSC-nin hasilat və istehsalat fəaliyyəti həyata keçirdiyi Daşkəsən rayonunda “Gələcəyin mədənçisi” layihəsinin icrasına başlanıb.
Layihə sözügedən rayonda qeydiyyatda olan 10-cu sinif şagirdlərini dağ-mədən sahəsi, o cümlədən metallurgiya, dağ-mədən mühəndisliyi, geologiya üzrə ali təhsil müəssisələrinə hazırlıq kursuna cəlb etməklə, onların bakalavriat səviyyəsinə qəbuluna dəstək göstərmək, şirkətin peşəkar kadr ehtiyacının hasilat bölgələrində yaşayan sakinlərin hesabına ödənilməsi, bununla bölgədə məşğulluğun artırılması, gənclərin savadlı mütəxəssis olaraq yetişməsinə töhfə vermək məqsədi daşıyır.
Bu məqsədlə Daşkəsən rayonunun 1, 2, 3, 4 saylı, eləcə də Quşçu və Bayan kənd orta məktəblərində təhsil alan şagirdlər və onların valideynləri ilə görüş keçirilib. Məktəblilərə layihə barədə ətraflı məlumat verilib, istedadlı və təşəbbüskar şagirdlərin ali təhsil müəssisələrinə hazırlığı, gələcəkdə dağ-mədən sahəsi üzrə ixtisaslı mütəxəssis kimi yetişməsi üçün şərait yaradılacağı diqqətə çatdırılıb. Daha sonra layihədə iştirak etmək istəyən şagirdlər tələb olunan ixtisaslar üzrə test imtahanı və inşa yazısı müsabiqəsinə cəlb ediliblər.
İmtahan və inşa yazısından daha məqbul qiymətlər alan 10 nəfər şagird ali məktəblərə hazırlıq kurslarına cəlb edilib, onların hər biri üçün 20 aylıq hazırlıq haqqı ödənilib.

## “Kreativ Media - Bakı” layihəsi

“AzerGold” QSC və Medianın İnkişafı Agentliyinin birgə təşkilatçılığı ilə “Kreativ Media - Bakı” adlı məzmun müsabiqəsi keçirilib.
**05-18.11.2023-cü il** tarixlərində təşkil edilən müsabiqə jurnalistika və kommunikasiya ixtisasında təhsil alan və bu sahəyə marağı olan gənclər üçün təşkil edilmiş Medianın İnkişafı Agentliyinin “MEDİAlab” layihəsi çərçivəsində həyata keçirilib.
**29.11.2023-cü il** tarixində müsabiqədə qalib gələn tələblərin mükafatlandırılması mərasimi keçirilib.
Ümumilikdə 18 nəfər tələbəyə mükafatlar təqdim edilib.





“Gələcəyin mədənçisi” layihəsi
**25.09.2023**







“Kreativ Media - Bakı” layihəsi
**29.11.2023**

# EKOLOJİ LAYİHƏLƏR

## "Ağyoxuş-1" qızıl yatağı yaxınlığında ağacəkmə aksiyası

**31.03.2023-cü il** tarixində "AzerGold" QSC-nin təşkilatçılığı, Şəmkir Regional Meşə Təsərrüfatı Mərkəzinin dəstəyi ilə "Ağyoxuş-1" qızıl yatağı yaxınlığında, Daşkəsən rayonu ərazisində yerləşən meşə fondu torpaqlarında növbəti ağacəkmə aksiyası keçirilib.
Yaz mövsümü ilə əlaqədar yaşıllıq sahələrinin artırılması və ekoloji tarazlığın təmin edilməsinə töhfə vermək məqsədilə istismarı tamamlanmış mədənin yaxınlığında təşkil edilən aksiyada "AzerGold" QSC və Şəmkir Regional Meşə Təsərrüfatı Mərkəzinin ümumilikdə 60 nəfərə yaxın nümayəndəsi iştirak edib. Aksiya çərçivəsində 1 hektar ərazidə yerli şəraitə uyğun 1200 ədəd ağac tingi, o cümlədən tut, fındıq və göyrüş fidanları əkilərək, aqrotexniki qaydada qulluq göstərilib.

## Qoşqarçayın sahilində təmizlik aksiyası

**05.06.2023-cü il** tarixində 5 İyun – Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü münasibətilə "AzerGold" QSC və "Regional İnkişaf" İctimai Birliyinin (RİİB) təşkilatçılığı ilə "Təbiəti qoruyaq, plastik tullantılara yox deyək!" devizi altında ekoloji aksiya və təlim keçirilib.
Aksiya çərçivəsində Səhmdar Cəmiyyətin əməkdaşları RİİB-in könüllüləri ilə birgə Gəncə-Daşkəsən iqtisadi rayonunun ən böyük su hövzələrindən biri olan Qoşqarçayın Daşkəsən rayonunun Quşçu kəndindən keçən hissəsində təmizlik işləri həyata keçiriblər. Aksiya iştirakçıları tərəfindən çayın sahilləri boyu, təqribən 2 hektara yaxın meşə ərazisi plastik, polietilen, metal, şüşə, kağız, karton və digər tərkibli tullantılardan təmizlənib. Yığılmış tullantılar çeşidlənərək, təkrar emala yönəldilib.







“Ağyoxuş-1” qızıl yatağı yaxınlığında ağacəkmə aksiyası
**31.03.2023**







Qoşqarçayın sahilində təmizlik aksiyası
**05.06.2023**

# EKOLOJİ LAYİHƏLƏR

## "Qırmızı Kitab"a daxil edilmiş nadir bitki növlərinin çoxaldılması və reintroduksiyası

**20.10.2023-cü il** tarixində "AzerGold" QSC tərəfindən Daşkəsən rayonunun ərazisində bitən, "Qırmızı Kitab"a daxil edilmiş nadir, nəsli kəsilmək təhlükəsində olan bitki növlərinin çoxaldılması, onların tarixən yetişdiyi ərazilərə reintroduksiyası layihəsi çərçivəsində növbəti ekoloji aksiya keçirilib. "Çovdar" qızıl mədəni ərazisində təşkil edilən aksiya zamanı "Rosa zangezura Jarosch." (Zəngəzur itburnusu), "Rosa nisami Sosn." (Nizami itburnusu), "Rosa pulverulenta M.Bieb" (qovuqlu itburnu), "Malus orientalis Mill." (şərq alması), "Fagus orientalis L." (şərq fıstığı), "Carpinus betulus L." (adi vələs), "Acer trautvetteri L." (trautvetter ağcaqayını), "Fraxinus excelsior L". (adi göyrüş), "Pyrus caucasica L." (Qafqaz armudu), "Pyrus salicifolia Pall." (söyüdyarpaq armud), "Euonymus grandiflorus Wall." (iriyarpaq gərməşov), "Frangula grandiflora A.Pool." (iriyarpaq kövrək mürdəşər), "Jasminum fruticans L." (kolvarı yasəmən), "İnula grandiflora" (iriçiçək andız), "Centaurea pseudocabiosa Boiss." (yalançı çətir güləvər) kimi nadir bitki növlərinin kütləvi əkini həyata keçirilib. Nadir bitkilərin mühafizəsi tədbirlərinə dair məlumatlar 2023-cü ildə işıq üzü görmüş Azərbaycan Respublikasının "Qırmızı kitab"ının yeni – 3-cü nəşrinə daxil edilib.











“Qırmızı Kitab”a daxil edilmiş nadir bitki növlərinin çoxaldılması və reintroduksiyası
**20.10.2023**

# İANƏ VƏ MADDİ YARDIMLAR

## Dahi bəstəkar Fikrət Əmirovun 100 illiyi çərçivəsində musiqi əsərlərinin yenidən redaktəsi və elektron formatda yığılması layihəsi

Mədəniyyət Nazirliyinin təşkilatçılığı, “AzerGold” QSC-nin dəstəyi ilə Azərbaycanın dahi bəstəkarı Fikrət Əmirovun 100 illiyi çərçivəsində onun “Şur”, “Kürdi-Ovşar”, “Gülüstan Bayatı-Şiraz” simfonik muğamları, “Azərbaycan kapriççiousu”, “Azərbaycan süitası”, “Nizaminin xatirəsinə” adlı musiqi əsərlərinin, mahnı və romanslarının yenidən redaktəsi və elektron formatda yığılması layihəsi icra edib.

## YAŞAT Fonduna ianə

Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fonduna (YAŞAT Fondu) ianə ödənişləri davam etdirilib.

## “Nargis” Fondu ianə

**01.05-15.06.2023-cü il** tarixlərində “Nargis” Fondu tərəfindən Fəvvarələr meydanında təşkil edilən “YayLand Fest” xeyriyyə yarmarkasının təşkilinə dəstək göstərilib. Həmin dəstək vasitəsilə xəstəliklərdən əziyyət çəkən 9 nəfər uşağın müalicəsi həyata keçirilib.

## “Regional İnkişaf” İctimai Birliyinə ianə

**20.11.2023-cü il** tarixində “Regional İnkişaf” İctimai Birliyi, Elm və Təhsil Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, “AzerGold” QSC və “Nar”ın birgə təşkilatçılığı ilə icra edilən 20 Noyabr – Ümumdünya Uşaq Hüquqları Gününə həsr edilmiş maarifləndirmə kampaniyası çərçivəsində paytaxt məktəblilərinin iştirakı ilə Debat Forumunun keçirilməsinə dəstək göstərilib.






Bakı məktəbliləri arasında Debat Forumu
**20.11.2023**

# İANƏ VƏ MADDİ YARDIMLAR

## Vətəndaşlara maddi yardımlar

KSM Komitəsinə il ərzində mütəmadi olaraq müxtəlif sosial həssas qruplara daxil olan şəxslərdən maddi yardımla əlaqədar 274 sorğu daxil olub. Bu sorğuların 11.7%-i müvafiq yoxlama tədbirləri icra edildikdən sonra müsbət dəyərləndirilib və 32 nəfərə ölkə üzrə orta aylıq əməkhaqqı nəzərə alınmaqla birdəfəlik maddi yardımlar edilib.

## Qurban bayramı münasibətilə şəhid ailələrinə bayram sovqatı

**28-29.06.2023-cü il** tarixlərində "AzerGold" QSC tərəfindən Qurban bayramı münasibətilə Daşkəsən rayonunda qeydiyyatda olan şəhid ailələri ziyarət edilib.
QSC-nin KSM Komitəsinin yerli əhali və icmalarla iş prioritetləri çərçivəsində təşkil edilən ziyarətin məqsədi müstəqil dövlətimizin ərazi bütövlüyü uğrunda həyata keçirilmiş hərbi əməliyyatlar zamanı həlak olmuş şəhidlərimizin ailə üzvlərinin daim diqqətdə saxlanılması, onların rifah halının yaxşılaşdırılması istiqamətində dövlətin yürütdüyü siyasətə əlavə töhfə verməkdir. Qurban bayramı ərəfəsində təşkil edilən ziyarət zamanı şəhid ailələrinə müxtəlif ərzaq məhsullarından ibarət bayram sovqatları təqdim edilib, şəhidlərimizin xatirəsi dərin hörmət və ehtiramla yad edilib.

## Anım Günü ilə bağlı şəhid ailələrinə ziyarətin təşkili

**26-27.09.2023-cü il** tarixində "AzerGold" QSC tərəfindən 27 Sentyabr – Anım Günü ilə bağlı Daşkəsən rayonunda qeydiyyatda olan şəhid ailələri ziyarət edilib.
QSC-nin KSM Komitəsinin yerli əhali və icmalarla iş prioritetləri çərçivəsində təşkil edilən ziyarətin məqsədi müstəqil dövlətimizin ərazi bütövlüyü uğrunda həyata keçirilmiş hərbi əməliyyatlar zamanı həlak olmuş şəhidlərimizin ailə üzvlərinin daim diqqətdə saxlanılması, onların rifah halının yaxşılaşdırılması istiqamətində dövlətin yürütdüyü siyasətə əlavə töhfə verməkdir. Anım Günü ərəfəsində təşkil edilən ziyarət zamanı şəhid ailələrinə müxtəlif ərzaq məhsullarından ibarət bağlamalar təqdim edilib, şəhidlərimizin xatirəsi dərin hörmət və ehtiramla yad edilib.






Qurban bayramı münasibətilə şəhid ailələrinə bayram sovqatı
**28.06.2023**




27 Sentyabr - Anım Günü ilə bağlı şəhid ailələrinə ziyarətin təşkili

# İANƏ VƏ MADDİ YARDIMLAR

## Yeni il bayramı münasibətilə aztəminatlı ailələrə bayram sovqatı

**20.12.2023-cü il** tarixində "AzerGold" QSC tərəfindən 31 Dekabr – Dünya Azərbaycanlıların Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə Daşkəsən rayonunda növbəti sosial yardım aksiyası keçirilib.

Aksiya çərçivəsində rayonun Çovdar, Quşçu kəndi, eyniadlı qəsəbə, eləcə də "Şadax" adlandırılan yaşayış məskəni üzrə aztəminatlı ailələr ziyarət edilib. Vətəndaşlara Səhmdar Cəmiyyətin adından bayram təbrikləri çatdırılıb, müxtəlif ərzaq məhsullarından ibarət sovqatlar təqdim edilib.





Yeni il bayramı münasibətilə aztəminatlı ailələrə bayram sovqatı
**20.12.2023**

AzerGold

**KORPORATİV SOSİAL MƏSULİYYƏT KOMİTƏSİNİN**
**İLLİK HESABATI**

**Bakı-2023**